| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 27.02.2009 |
| QEYDİYYAT NÖMRƏSİ | 34 |
| ADI | “Tikintisinə icazə tələb olunan bina və qurğuların mühəndis-axtarış işlərinin Siyahısı”nın, “Tikintisinə icazə tələb olunmayan tikinti obyektləri istisna olmaqla, bina və qurğuların layihələndirilməsi üzrə işlərin Siyahısı"nın və "Tikintisinə icazə tələb olunmayan və məlumatlandırma icraatı istisna olmaqla, bina və qurğuların tikinti-quraşdırma işlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 28-02-2009, Nəşr nömrəsi: 02, Maddə nömrəsi: 155) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 02.03.2009 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 100.000.000<br>110.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

## "Tikintisinə icazə tələb olunan bina və qurğuların mühəndis-axtarış işlərinin Siyahısı"nın, "Tikintisinə icazə tələb olunmayan tikinti obyektləri istisna olmaqla, bina və qurğuların layihələndirilməsi üzrə işlərin Siyahısı"nın və "Tikintisinə icazə tələb olunmayan və məlumatlandırma icraatı istisna olmaqla, bina və qurğuların tikinti-quraşdırma işlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI[2]

Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 noyabr tarixli 650 nömrəli Fərmanının 2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Tikintisinə icazə tələb olunan bina və qurğuların mühəndis-axtarış işlərinin Siyahısı", "Tikintisinə icazə tələb olunmayan tikinti obyektləri istisna olmaqla, bina və qurğuların layihələndirilməsi üzrə işlərin Siyahısı" və "Tikintisinə icazə tələb olunmayan və məlumatlandırma icraatı istisna olmaqla, bina və qurğuların tikinti-quraşdırma işlərinin Siyahısı" təsdiq edilsin (1-3 nömrəli əlavələr).[3]

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 27 fevral 2009-cu il
№ 34

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 27 fevral tarixli 34 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**1 nömrəli əlavə**

### Tikintisinə icazə tələb olunan bina və qurğuların mühəndis-axtarış işlərinin[4]

### S İ Y A H I S I

| **Sıra -si** | **İşlərin və xidmətlərin adı** |
|---|---|
| 1. | Mühəndis-geodeziya işləri |
| 2. | Mühəndis-geoloji axtarış işləri |
| 3. | Mühəndis-hidrogeoloji axtarış işləri |
| 4. | Geofiziki işlər |
| 5. | Qruntların laboratoriya tədqiqatı |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 27 fevral tarixli 34 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**2 nömrəli əlavə**

### Tikintisinə icazə tələb olunmayan tikinti obyektləri istisna olmaqla,bina və qurğuların layihələndirilməsi üzrə işlərin[5]

### S İ Y A H I S I

| **Sıra -si** | **İşlərin və xidmətlərin adı** |
|---|---|
| **1.** | **Şəhərsalma sənədlərinin işlənilməsi:** |
| 1.1. | rayon planlaşdırma sxemləri və şəhərlərin baş planlarının layihələndirilməsi |
| 1.2. | yaşayış məhəllələrinin və əsas magistral küçə və yollarının tikinti-planlaşdırma layihələndirilməsi |
| 1.3. | ərazilərin şaquli planlaşdırılması və abadlaşdırılmasının layihələndirilməsi |
| **2.** | **Obyektlərin memarlıq layihələndirilməsi:** |
| 2.1. | bina və qurğuların memarlıq layihələndirilməsi |

| | |
|---|---|
| 2.2. | memarlıq abidələrinin bərpası |
| **3.** | **İnşaat konstruksiyalarının layihələndirilməsi** |
| **4.** | **Nəqliyyat qurğularının layihələndirilməsi:** |
| 4.1. | dəmiryolları |
| 4.2. | avtomobil yolları |
| 4.3. | aerodromların uçuş-enmə zolaqları |
| 4.4. | körpülər və yolötürücüləri |
| 4.5. | dəmiryolu tunellərinin, metro stansiyaları və tunellərinin layihələndirilməsi |
| 4.6. | magistral boru kəmərləri |
| 4.7. | rezervuarlar |
| **5.** | **Hidrotexniki və meliorasiya qurğularının layihələndirilməsi** |
| **6.** | **Mühəndis sistemlərinin, şəbəkələrin və qurğuların layihələndirilməsi:** |
| 6.1. | elektrik stansiyaları |
| 6.2. | yüksək gərginlikli elektrik enerjisinin ötürücü xətləri və qurğuları |
| 6.3. | elektrik təchizatı sistemləri |
| 6.4. | istilik təchizatı sistemləri |
| 6.5. | su təchizatı və kanalizasiya sistemləri |
| 6.6. | qaz təchizatı sistemləri |
| 6.7. | rabitə, radio və televiziya şəbəkələri və sistemləri |
| 6.8. | ventilyasiya və kondisionerləşdirmə sistemləri |
| 6.9. | soyuqluq təchizatı sistemləri |
| 6.10. | avtomatlaşdırma və nəzarət-ölçü cihazları |
| 6.11. | yanğın-mühafizə siqnalizasiyası və avtomatlaşdırılmış yanğınsöndürmə sistemləri |
| **7.** | **Layihələrin xüsusi bölmələrinin işlənməsi:** |
| 7.1. | korroziyaya qarşı mühafizə tədbirlərinin layihələndirilməsi |
| 7.2. | tikintinin təşkilinin layihələndirilməsi |
| 7.3. | smetaların tərtib edilməsi |
| **8.** | **Bina və qurğuların texniki vəziyyətinin müayinəsi:** |
| 8.1. | bina və qurğuların müayinəsi |
| 8.2. | mühəndis şəbəkələrinin və sistemlərinin müayinəsi |
| **9.** | **Baş layihəçi funksiyasının həyata keçirilməsi (fəaliyyət sahələri üzrə)** |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 27 fevral tarixli 34 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli əlavə**

**Tikintisinə icazə tələb olunmayan və məlumatlandırma icraatı istisna olmaqla, bina və qurğuların tikinti-quraşdırma işlərinin**[6]

**S İ Y A H I S I**

| **Sıra -si** | **İşlərin və xidmətlərin adı** |
|---|---|
| **1.** | **Torpaq işləri** |
| **2.** | **Xüsusi torpaq işləri:** |
| 2.1. | suyun səviyyəsinin aşağı salınması |
| 2.2. | torpağın möhkəmləndirilməsi (qruntun süni dondurulması, silikatlama, qatranlama, sementləmə) |
| 2.3. | ankerlərin torpağa bərkidilməsi və binaların "torpaqda divar" üsulu ilə tikilməsi |
| 2.4. | enmə quyularının və kessonların qurulması |
| 2.5. | qazma-partlayış işləri və qaya torpaqlarının çıxarılması |
| **3.** | **Daş-hörgü işləri** |
| **4.** | **Monolit beton və dəmir-beton konstruksiyaların qurulması, yığma beton və dəmir-beton konstruksiyaların quraşdırılması** |
| **5.** | **Metal konstruksiyaların yerində hazırlanması və quraşdırılması** |
| **6.** | **Ağac konstruksiyaların yerində hazırlanması və quraşdırılması** |
| **7.** | **Dirək (svay) işləri:** |
| 7.1. | dirəyin, dirək-qabığın və şpuntların vurulması |
| 7.2. | qazılmaqla doldurma dirəklərin qurulması |

| | |
|---|---|
| **8.** | **Dam örtük işləri:** |
| 8.1. | rulon materiallardan dam örtükləri |
| 8.2. | polimer və bitum-emulsiya tərkibli dam örtükləri |
| 8.3. | ədədi materiallardan dam örtükləri |
| 8.4. | metal lövhə detallardan dam örtükləri |
| **9.** | **Yüngül qoruyucu konstruksiyaların quraşdırılması:** |
| 9.1. | metal konstruksiyalar |
| 9.2. | ekstruzion panel və lövhələrdən qoruyucu konstruksiyalar |
| **10.** | **Bəzək tamamlama işləri:** |
| 10.1. | fasad və dekorativ bəzək işləri |
| 10.2. | üzlük işləri |
| **11.** | **Bayır mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması işləri (su, kanalizasiya və istilik xətləri)** |
| **12.** | **Daxili mühəndis sistem və avadanlıqlarının quraşdırılması işləri:** |
| 12.1. | mərkəzləşdirilmiş istilik və ventilyasiya, kondisioner, pnevmotransport və aspirasiya sistemlərinin quraşdırılması |
| 12.2. | texnoloji boru, su və kanalizasiya xətlərinin, avadanlıqların, uçot və nəzarət cihazlarının quraşdırılması |
| 12.3. | elektrik təchizatı sisteminin quraşdırılması |
| 12.4. | alçaq gərginlikli xətlərin və avtomatik yanğınsöndürmə sistemlərinin quraşdırılması |
| **13.** | **Texnoloji avadanlıqların, boru kəmərlərinin və konstruksiyaların qorunması:** |
| 13.1. | ağac konstruksiyaların çürümədən və yanğından qorunması (antiseptik və yanğınadavamlı örtüklərin çəkilməsi) |
| 13.2. | korroziyadan qorunma (antikorroziya örtüklərinin çəkilməsi) |
| 13.3. | boru kəmərlərinin, dəmir-beton və metal konstruksiyaların elektrokimyəvi qorunması |
| 13.4. | istismar səs-küyü və vibrasiyalardan akustik müdafiə |
| **14.** | **Açıq və qapalı akvatoriyalarda dəniz və çay hidrotexniki qurğularının tikintisində hidrotexniki işlər:** |
| 14.1. | sualtı-texniki işlər |
| 14.2. | suyun dibinin dərinləşdirilməsi və yuyub təmizləmə işləri |
| 14.3. | dirəklər və qabıq dirəklər üzərində qurğuların tikintisi |
| 14.4. | dambaların (torpaq bəndlərin) tikintisi |
| 14.5. | limanların tikintisi |
| 14.6. | pirslərin tikintisi |
| 14.7. | hidrotexniki qurğular və onların kompleksləri |
| **15.** | **Nəqliyyat tikintisi:** |
| 15.1. | I və II dərəcəli avtomobil yolları |
| 15.2. | III, IV və V dərəcəli avtomobil yolları |
| 15.3. | elektrik sərnişin nəqliyyatı (tramvay, trolleybus və hava-kanat xətləri) yolları |
| 15.4. | şəhərlərin magistral yollarının və küçələrin tikintisi |
| 15.5. | nəqliyyat tunelləri və metropolitenlər |
| 15.6. | magistral dəmiryol xətləri |
| 15.7. | dəmiryolun yerli ayırma xətləri |
| 15.8. | körpülər, estakadalar və yol ötürücüləri : |
| 15.8.1. | dəmir-beton konstruksiyalı: |
| 15.8.1.1. | aşırımı 12 metrədək |
| 15.8.1.2. | aşırımı 12 metr və daha çox |
| 15.8.2. | metal konstruksiyalı: |
| 15.8.2.1. | aşırımı 18 metrədək |
| 15.8.2.2. | aşırımı 18 metr və daha çox |
| 15.9. | aerodromların uçuş-enmə zolaqları və dönmə yolları |
| **16.** | **Sənaye, mülki və ictimai obyektlərin tikintisi:** |
| 16.1. | aşırımı 24 metrədək |
| 16.2. | aşırımı 24 metr və daha çox |
| 16.3. | tribunalı açıq idman qurğuları: |
| 16.3.1. | tutumu 5 min nəfərədək |
| 16.3.2. | tutumu 5 min nəfər və daha çox |
| 16.4. | unikal konstruksiyalı bina və qurğular |
| **17.** | **Xüsusi qurğuların tikintisi və quraşdırılması:** |
| 17.1. | radiorabitə, radio və televiziya qurğuları və qüllələr |
| 17.2. | su anbarları və texnoloji çənlər |

| | |
|---|---|
| ~~17.3.~~ | ~~rezervuarlar və qazholderlər (qaz anbarları)~~ |
| ~~17.4.~~ | ~~sənaye sobaları, tüstü boruları, silos quyuları, su qüllələri, qradirnilər~~ |
| ~~17.5.~~ | ~~vant konstruksiyaları~~ |
| ~~17.6.~~ | ~~bina və qurğuların polad konstruksiyaları~~ |
| ~~17.7.~~ | ~~boru kəmərləri:~~ |
| ~~17.7.1.~~ | ~~magistral~~ |
| ~~17.7.2.~~ | ~~yerli əhəmiyyətli~~ |
| ~~17.8.~~ | ~~elektrik ötürücü xətləri:~~ |
| ~~17.8.1.~~ | ~~35 kV-a qədər~~ |
| ~~17.8.2.~~ | ~~35 kV-dan artıq~~ |
| ~~**18.**~~ | ~~**Texnoloji avadanlıqların quraşdırılması:**~~ |
| ~~18.1~~ | ~~yanacaqdoldurma stansiyaları~~ |
| ~~18.2.~~ | ~~su və istilik elektrik stansiyaları~~ |
| ~~18.3.~~ | ~~modul elektrik stansiyaları~~ |
| ~~18.4.~~ | ~~çirkab suların təmizləmə qurğuları~~ |
| ~~18.5.~~ | ~~irriqasiya və meliorasiya sistemləri~~ |
| ~~**19.**~~ | ~~**Baş podratçı funksiyasının yerinə yetirilməsi (fəaliyyət sahələri üzrə)**~~ |

-

~~**Qeyd.** Bu Siyahı fərdi və digər yaşayış evlərində, mənzillərdə, bağ evlərində aparılan təmir işlərinə şamil olunmur.~~ [7]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 12 iyun 2013-cü il tarixli **129** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 21 iyun 2013-cü il, 133; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 06, maddə 743** )
2. 15 may 2017-ci il tarixli **206** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 16 may 2017-ci il, 103, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 977)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 12 iyun 2013-cü il tarixli **129** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 21 iyun 2013-cü il, 133; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 06, maddə 743** ) ilə adı yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~"Dövlət standartlarına uyğun olaraq, I və II məsuliyyət səviyyəli bina və qurğuların mühəndis-axtarış işlərinin Siyahısı"nın, "Dövlət standartlarına uyğun olaraq, I və II məsuliyyət səviyyəli bina və qurğuların layihələndirilməsi üzrə işlərin Siyahısı"nın və "Dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında~~

-

[2] 15 may 2017-ci il tarixli **206** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 16 may 2017-ci il, 103, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 977)** ilə "Tikintisinə icazə tələb olunan bina və qurğuların mühəndis-axtarış işlərinin Siyahısı"nın, "Tikintisinə icazə tələb olunmayan tikinti obyektləri istisna olmaqla, bina və qurğuların layihələndirilməsi üzrə işlərin Siyahısı"nın və "Tikintisinə icazə tələb olunmayan və məlumatlandırma icraatı istisna olmaqla, bina və qurğuların tikinti-quraşdırma işlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 27 fevral tarixli 34 nömrəli qərarı ləğv edilmişdir.

[3] 12 iyun 2013-cü il tarixli **129** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 21 iyun 2013-cü il, 133; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 06, maddə 743** ) ilə 1-ci hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1. "Dövlət standartlarına uyğun olaraq, I və II məsuliyyət səviyyəli bina və qurğuların mühəndis-axtarış işlərinin Siyahısı", "Dövlət standartlarına uyğun olaraq, I və II məsuliyyət səviyyəli bina və qurğuların layihələndirilməsi üzrə işlərin Siyahısı" və "Dövlət standartlarına uyğun olaraq, I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin Siyahısı" təsdiq edilsin(1-3 nömrəli əlavələr).~~

[4] 12 iyun 2013-cü il tarixli **129** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 21 iyun 2013-cü il, 133; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 06, maddə 743** ) ilə 1 nömrəli əlavə - "Dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların mühəndis-axtarış işlərinin Siyahısı"nın adında "**Dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli**" sözləri "**Tikintisinə icazə tələb olunan**" sözləri ilə əvəz edilmişdir.

-

[5] 12 iyun 2013-cü il tarixli **129** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 21 iyun 2013-cü il, 133; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 06, maddə 743** ) ilə 2 nömrəli əlavə - "Dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların layihələndirilməsi üzrə işlərin Siyahısı"nın adında "**Dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli**" sözləri "**Tikintisinə icazə tələb olunmayan tikinti obyektləri istisna olmaqla** ," sözləri ilə əvəz edilmişdir.

-

[6] 12 iyun 2013-cü il tarixli **129** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 21 iyun 2013-cü il, 133; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 06, maddə 743** ) ilə 3 nömrəli əlavə - "Dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin Siyahısı"nın adında "**Dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli**" sözləri "**Tikintisinə icazə tələb olunmayan və məlumatlandırma icraatı istisna olmaqla** ," sözləri ilə əvəz edilmişdir.

-

[7] 12 iyun 2013-cü il tarixli **129** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 21 iyun 2013-cü il, 133; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 06, maddə 743** ) ilə “Qeyd” ləğv edilmişdir.